# Şirvanda akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib

***Şirvan şəhərində akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr olunmuş rəsm sərgisi və inşa müsabiqəsi keçirilib.***





Bu il aprelin 27-də Şirvan şəhər Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə “Nur dolu ömür” adlı rəsm sərgisinin açılış mərasimi keçirilib. Şirvan Şəhər İcra Hakimiyyəti, Şirvan şəhər Heydər Əliyev Mərkəzi və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə keçirilən sərgidə şəhər ümumtəhsil məktəblərinin şagirdlərinin rəsmləri nümayiş olunub. Pandemiya qaydalarına əməl edilməklə təşkil olunan sərgidə nümayiş olunan rəsm əsərləri əsl Azərbaycan xanımı, gözəl ana, qayğıkeş həyat yoldaşı, fitri istedada malik həkim, istedadlı alim Zərifə xanım Əliyevanın mənalı ömür yoluna həsr edilib.

Sərgini giriş sözü ilə Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşı Aynur Fərzəliyeva açaraq akademik, oftalmologiya sahəsində görkəmli alim, ictimai xadim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Zərifə Əliyevanın Azərbaycan üçün həyata keçirdiyi xidmətlərdən, oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıb. Qeyd edib ki, geniş dünyagörüşü, yüksək ziyalılığı, tədqiqatçılıq bacarığı ilə hamının rəğbətini qazanmış Zərifə xanım ulu Tanrının xalqımıza bəxş etdiyi heyrətamiz dərəcədə pak və nadir insan idi. İnsanların gözlərinə nur bəxş etməsi onun qəlbindəki humanizm duyğusunun və həssaslığının peşəsində təzahürü idi.

Sonra Sabirabad Regional Mədəniyyət İdarəsinin rəis müavini Əziz Abbasov, şəhər Təhsil şöbəsinin müdiri Rövşən Allahverdiyev, Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev sərgi barədə təəssüratlarını bölüşərək, Azərbaycan dövlətçilik tarixinin böyük şəxsiyyətləri ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, cənab Prezident İlham Əliyevin anası Zərifə xanım Əliyevanın keçdiyi həyat yolunun gənclərə örnək olduğunu, illər keçsə də xatirəsinin daim dərin ehtiramla anılacağını diqqətə çatdırıblar.

Sərgidə nümayiş olunan rəsm əsərlərininin müəllifləri–şəhər ümumtəhsil məktəblərinin şagirdləri Ayla Mahmudova 1-ci yerə, Nəzrin Poladova 2-ci yerə, Suma Vahidova və Mirsəkinə Yusifova 3-cü yerlərə layiq görülüblər və fəxri fərmanlarla təltif ediliblər.

Qeyd edək ki, Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr edilmiş sərgi 3 gün davam edəcək.

Şirvandan aldığımız digər xəbərdə isə deyilir ki, Şirvan Şəhər İcra Hakimiyyəti, Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Əməkdar elm xadimi, tibb elmləri doktoru, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Qaranlığa nur saçan alim” mövzusunda onlayn inşa-yazı müsabiqəsi başa çatıb.

Müsabiqə 2021-ci il aprelin 13-dən 25-dək şəhər ümumtəhsil məktəblərinin V-IX sinif şagirdləri arasında keçirilib və şəhər turunda 40 nəfər şagird iştirak edib. Müsabiqəyə təqdim olunan yazılarda məktəblilərin Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətlərinin gənclər arasında geniş təbliğ edilməsi, eyni zamanda, ölkəmizdə koronavirus pandemiyasının yayılmasında tibb işçilərinin əvəzsiz rolu, dövlətimizin pandemiyanın yayılmasının qarşısının alınmasında həyata keçirdiyi zəruri, təxirəsalınmaz və qabaqlayıcı tədbirlərlə bağlı məktəblilərin düşüncələri öz əksini tapıb.

Münsiflər heyətinin yekun qərarına əsasən, 21 nömrəli tam orta məktəbin şagirdi Cavid Bağırov, 18 nömrəli tam orta məktəbin şagirdi Şərəf Əliyeva, 2 nömrəli tam orta məktəbin şagirdi Türkanə Cabbarlı, 1 nömrəli tam orta məktəbin şagirdi Fidan Hüseynova rəsm müsabiqəsinin qalibləri müəyyən olunub və onlar diplomlarla təltif edilib.

***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***